## Ya, ya da.

Deyirlər ki, tərk etmisən, getmisən
Bəlkə elə getməyini istəmişəm, getmisən?
Ya da mənim istəklərim arasında itmisən
Bəlkə də istəmədən, anlamadan bitmisən?
Ya fəsilə bağlısanmış, bahar gedib
Onla birgə solmusan?
Ya da qalıb, payız vaxtı sən özünü
Küləklərdə yormusan?
Heç bilmirəm bəlkə elə bu fəsillər özünsən
İldə 4 kəz isti soyuğ olursan, ciyərimə dolursan
Bəlkədə sən anam kimi, hər cəfama dözürsən
Bəlkə də bu yanımdakı bədbəxt kimi, ağlıyırsan, saçlarını yolursan?
Ya sən buralar da bir yerdəsən, qoxun gəlir
Ya da elə gecə kimi hər yerdəsən, yuxum gəlir
Ya sən mənim göz yaşımsan, düşmə deyə gözlərimdən
Ağlamıram, adınıda mən ağlamağ bacarmıram qoymuşam
Ya da ki, sən həmin qoca çinarsan
Öz adını öz bağrına dəfələrlə oymuşam
Ya sən bizim həyətdəki çardağsan, sakitliyim, hüzurum
Ya da mənə məxsus olan incəbelli bardağsan
Bardağ qırmaq mənim köhnə qüsurum.
Ya sən heçsən, mən boşluğun insanıyam
Ya da elə hər şeymişsən, sadəcə mən
Dünya boyda bir yoxluğun insanıyam.

RƏŞAD ASLAN #rashad
03:58 18.08.2019

Son değiştirilme tarihi: 19 Ağu 2019